


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 178 (23.820)

28 sentyabr 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciət edib. Dövlətimizin başçısı Anım Günündə bütün şəhidlərimizin xatirəsini ehtiramla yad edərək bildirib ki, biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik.

* * *

Sentyabrın 27-də – Anım Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək müasir müstəqil dövlətimizin memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər. Dövlətimizin başçısı, birinci xanım ulu öndərin abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla anıblar.

* * *

Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlarımıza və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq sentyabrın 27-də – Anım Günündə Bakı şəhərində yürüş təşkil edilib.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı şəhəri, 8 Noyabr prospektində Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin təməlqoyma mərasimində iştirak ediblər. Dövlətimizin başçısı və birinci xanım Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlini qoyublar.

Yerli vaxtla saat $12^{00}$-da bütün ölkə ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Dənizkənarı bulvar ərazisinə gələrək qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

# Naxçıvanda Vətən müharibəsi şəhidlərinin xatirəsi yad edilib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında" 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən Vətən müharibəsində qəhrəmancasına döyüşmüş şəhidlərimizə dərin ehtiram əlaməti olaraq hər il sentyabrın 27-si ölkəmizdə Anım Günü kimi qeyd olunur.



Sentyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Anım Günü ilə əlaqədar Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə Kompleksini ziyarət etmiş, abidə önünə güllər qoymuş, şəhidlərin xatirəsinə ehtiramını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, xidmət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin, hərbi hissələrin, Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş Konsulluğunun əməkdaşları və Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndələri də Xatirə Kompleksini ziyarət etmişlər.

Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

"Qurani-Kərim"dən ayələr oxunmuşdur.

O ordu qalib və güclüdür ki, onun müzəffər Ali Baş Komandanı, vətənpərvər və peşəkar şəxsi heyəti vardır. Vətən müharibəsində qazandığımız tarixi qələbənin əsasında da məhz bu amillər dayanır. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan milli hərbi kadr hazırlığı və ordu quruculuğu strategiyası bu gün Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İqtisadi və siyasi qüdrətini günbəgün artıran Azərbaycanda dövlət-xalq-ordu birliyi, möhkəm həmrəylik və güclü iradə vardır. Ümummilli liderimiz Heydər Əliyevin də dediyi kimi: ***"Xalq ilə Azərbaycan Prezidentinin birliyi, həmrəyliyi dövlət müstəqilliyimizin bu gün də, gələcəkdə də əsasını təşkil edir".*** Vətən müharibəsində qazanılan tarixi qələbə həm də xalq-lider birliyinin daha bir ifadəsi oldu.





Ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin nəticəsi olaraq Naxçıvan Muxtar Respublikasında da müdafiə təhlükəsizliyi ilbəil möhkəmləndirilir, hərbi hissələrin maddi-texniki təminatı gücləndirilir, əsgəri-məişət-yaşayış kompleksləri tikilir, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutdu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin əmri ilə ordumuz düşmənin bu təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə əks-hücum əməliyyatlarına başladı. Müzəffər və rəşadətli ordumuz 44 günlük Vətən müharibəsində uğurlu əməliyyatlar keçirərək düşməni darmadağın etdi, 30 ilə yaxın işğal altında qalan torpaqlarımız azad olundu.

Haqq-ədalətin bərpa olunmasında Naxçıvandan olan igid oğullar da qəhrəmancasına mübarizə apardı, öz vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirərək ərazi bütövlüyümüzün təmin olunmasında şücaət göstərdilər. Ölkə başçısı cənab İlham Əliyevin də dediyi kimi: ***"Naxçıvanlılar ikinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər... Başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər".***

Həmin gün muxtar respublikanın rayonlarında da Vətən müharibəsi şəhidlərinin xatirəsi yad edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Muxtar respublikada Anım Günü ilə bağlı tədbirlər keçirilib



Sentyabrın 27-si Azərbaycanda Anım Günü münasibətilə Naxçıvan Muxtar Respublikasında Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olan əsgər və zabitlərimizin, mülki vətəndaşlarımızın xatirəsinə həsr olunmuş bir sıra tədbirlər keçirilib.

Şəhidlərimizin əziz xatirəsi Naxçıvan şəhər Came və Kazım Qarabəkir Paşa məscidində, Babək rayon Nehrəm qəsəbə məscidində, Ordubad rayon Dırnıs kənd Allahşükür məscidində, Culfa rayon Əbrəqunus kənd məscidində, Şahbuz rayon məscidində, Kəngərli rayon Qıvraq qəsəbə məscidində, Şərur şəhər məscidində yad edilib. Vətənin bütövlüyü uğrunda canından keçmiş şəhidlərin ruhuna dualar oxunub, dini ayinlər icra olunub, ölkəmizdə və bütövlükdə dünyada əbədi sülhün bərqərar olması üçün dualar edilib.





Naxçıvan şəhərinin gəncləri şəhər mərkəzindəki Heydər Əliyev Muzeyinin qarşısından başlayaraq Heydər Əliyev prospekti boyunca Naxçıvan şəhər qəbiristanlığına, oradan da Şəhidlər xiyabanınadək yürüş ediblər. Yürüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi, Nazirlər Kabineti, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, ümumilikdə, 15 əməkdaşı, gənclər və idman naziri, Gənclər Fondunun icraçı direktoru iştirak ediblər. Ali təhsil müəssisələrindən 70, orta ixtisas təhsili müəssisələrindən 30, Heydər Əliyev adına Hərbi Lisey üzrə 20, Naxçıvan Qarnizonu tam orta məktəbindən 10, Naxçıvan şəhər ümumtəhsil məktəblərinin XI sinfinin 40 şagirdi, 20 fəal gənc və könüllü, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin 10 fəal üzvü olmaqla, ümumilikdə, 200 gənc yürüşə qatılıb, yürüş ərzində iştirakçılar üçrəngli bayrağımızı dalğalandırıb, şəhid məzarlarını ziyarət ediblər.

Muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində və bütün rayonlarında 27 sentyabr – Anım Günü ilə əlaqədar gənclərin yürüşü olub, rayon mərkəzləri, qəsəbə və kəndlərdəki şəhid məzarları ziyarət edilib.

* * *

***Şəhidlik məqamına qovuşan eloğullarımız bu gün bizə Qələbə sevinci ilə bərabər həm də sonsuz qürur hissi yaşadır. Torpaq uğrunda, Vətən yolunda şəhid olan, onun keşiyini çəkib sərhəd daşına dönən oğullar heç vaxt unudulmur, əbədi yaşayırlar.***

II Qarabağ müharibəsinin başlanmasının ildönümü muxtar respublikada da ərazi bütövlüyümüz uğrunda canlarından keçmiş şəhidlərimizə böyük ehtiramla qeyd olunub. Həmin gün muxtar respublikanın nazirlik,



komitə, idarə, müəssisə və təşkilatlarının nümayəndələri, demək olar ki, bütün sakinlər şəhid məzarlarını ziyarət ediblər. Məzarların önünə gül dəstələri qoyulub, dualar oxunub, ərazi bütövlüyümüz uğrunda canından keçən igidlərimiz minnətdarlıqla yad edilib.

Sentyabrın 27-də saat $12^{00}$-da muxtar respublikanın bütün ərazisində Vətən müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, nəqliyyatın hərəkəti dayandırılıb.

* * *





Ordubad şəhər 1 nömrəli tam orta məktəb

***Sentyabrın 27-də muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Xatirə Muzeyi arasında 27 sentyabr – Anım Günü ilə bağlı interaktiv dərs keçilib.***

İnteraktiv dərsi Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin tarix müəllimi Şəhla Əliyeva aparıb, 44 günlük Vətən müharibəsi barədə şagirdlərə ətraflı məlumat verib. Bildirilib ki, 2021-2022-ci tədris ilindən muxtar respublikanın ümumi təhsil müəssisələrinin IX siniflərində Zəfər tarixi tədris olunur.

Qeyd olunub ki, Ermənistan Respublikasının ölkəmizə qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq ordumuz Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanının rəhbərliyi ilə işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başlamışdır. Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə rəşadət göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə, xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək düşmənin layiqli cavabını vermişdir.

Şagirdlərə məlumat verilib ki, döyüşlərdə Azərbaycan daha az itki ilə qələbə qazanmışdır. Müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və 8 noyabrda Şuşa şəhəri işğaldan azad edilmişdir. Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Rusiya Prezidenti, Ermənistanın baş naziri münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə Bəyanat imzaladılar. Bəyanata əsasən noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları sülh yolu ilə, heç bir qan tökülmədən Azərbaycana qaytarıldı. Bəyanatda, həmçinin Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi elan edilmişdir.

Vurğulanmışdır ki, Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2904 hərbi qulluqçusu həlak olmuş, hərbi qulluqçularımızdan itkin düşən və yaralanaraq sağlamlığını itirənlər olmuşdur. İşğal altındakı torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına azad edilmişdir.

Dərsdə rəşadətli ordumuzun zəfər yürüşündə Naxçıvan döyüşçülərinin qəhrəmanlığından bəhs olunaraq bildirilmişdir ki, müharibənin əsas canlı qüvvələrindən biri də məhz Oğuz eli, qədim diyar Naxçıvandan olan hərbçi zabitlər idi. Müharibədə iştirak edən qəhrəmanlar xüsusi təlimlər almış, yüksək hərbi bacarıqlara malik, illərlə Vətənin bu günü üçün yetişdirilmiş zabitlər idi. Artıq heç kəsə sirr deyil ki, Vətən uğrunda ən çox şəhid verən regionlardan biri də Naxçıvan oldu. Buna görə də Azərbaycan Respublikasının Prezidenti 10 noyabr tarixdə Qələbə xəbərini xalqa verərkən Naxçıvandan cəbhəyə yollanan igidlərimizin qəhrəmanlıqlarından xüsusi söz açdı. Ali Baş Komandan qeyd etdi ki, naxçıvanlılar müharibədə qəhrəmanlıqla vuruşub və şəhidlər verib.

Qeyd olunmuşdur ki, Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı müvafiq sərəncamlara əsasən hər il 27 sentyabr "Anım Günü", 8 noyabr isə "Zəfər Günü" kimi qeyd ediləcəkdir.

Dərs muxtar respublikanın 200-dən çox təhsil müəssisəsində izlənilib.

* * *

## Şərur rayonu



27 sentyabr 2020-ci il... Səhər saatlarından başlayaraq cəbhəboyu ərazilərimizdə növbəti hərbi təxribat törədən düşmən yaşayış məntəqələrimizi, döyüş mövqelərimizi şiddətli artilleriya atəşinə tutmağa başladı. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyev azğınlaşmış düşmənin hücumlarının qarşısını almaq, onu öz təcavüzkarlıq siyasətinə son qoymağa məcbur etmək məqsədilə bütün cəbhəboyu əks-hücum əmri verdi. 44 gün davam edən müharibə ərzində Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızı 30 illik düşmən işğalından azad etdi. Tarixi ata-baba yurdumuzda üçrəngli bayrağımız dalğalandı.

Həmin müharibədə Şərur rayonundan da 30 igid oğul şəhidlik zirvəsinə ucalıb. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, müqəddəs Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Azərbaycan Respublikasının Prezidenti 27 sentyabrın respublikamızda "Anım Günü" kimi qeyd olunması ilə bağlı Sərəncam imzalayıb.

Dünən Şərur Rayon İcra Hakimiyyətinin, Gənclər və İdman İdarəsinin və Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Gənclər Birliyinin təşkilatçılığı ilə Şərur şəhərindəki Şəhidlər xiyabanı ziyarət edilib. Anım Günündə rayonun qəsəbə və kəndlərindəki şəhid məzarları da sakinlər tərəfindən ziyarət olunub, şəhidlərin ruhuna dualar oxunub.

## Babək rayonu

Xalq qəhrəmanımız Babəkin adını daşıyan rayonun gəncləri də ötən il sentyabrın 27-də başlanmış azadlıq mücadiləsində böyük qəhrəmanlıqlar göstəriblər. Babək Rayon İcra Hakimiyyəti aparatının, rayonun idarə, müəssisə və təşkilatları kollektivlərinin, eləcə də ictimaiyyət nümayəndələrinin rayon mərkəzində yerləşən Şəhidlər Abidə Kompleksini ziyarət etmələri onların ruhuna böyük ehtiramın ifadəsi olub. Tədbir iştirakçıları abidə önünə gül dəstələri düzüb, Vətən yolunda, ərazi bütövlüyümüz uğrunda canından keçən oğul və qızlarımızın əziz xatirəsini yad ediblər.



Həmin gün məktəblilərin və gənclərin Babək şəhərinin Heydər Əliyev prospektindən başlayaraq Şəhidlər Abidə Kompleksinə qədər yürüşü təşkil olunub. Rayonun qəsəbə və kəndlərindəki şəhid məzarları da ziyarət edilib.

Qeyd edək ki, Vətən müharibəsində 16 babəkli şəhadət zirvəsinə ucalıb, 25 hərbi qulluqçu isə qazi adını qazanıb. Bu gün ölkəmizdə və muxtar respublikamızda şəhid ailələrinin və qazilərin sosial problemlərinə həssaslıqla yanaşılır. Bu il Ali Məclis Sədrinin diqqət və qayğısı ilə Babək şəhərindəki 7 mərtəbəli, 28 mənzilli yeni yaşayış binasında daha 3 şəhid ailəsinə mənzillərin verilməsi Vətən yolunda canından keçən oğulların ailələrinə göstərilən diqqətin daha bir ifadəsidir.

Ardı 3-cü səhifədə

## Ordubad rayonu

Böyük Zəfərlə nəticələnən 44 günlük Vətən müharibəsində Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbçiləri, Heydər Əliyev adına Hərbi Liseyin məzunları xüsusi şücaət və qəhrəmanlıq göstərərək Tarixi Qələbənin qazanılmasında müstəsna rol oynamış, onların əksəriyyəti şəhidlik məqamına yüksəlmişlər. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev naxçıvanlı hərbçilərimizin bu şücaətini yüksək qiymətləndirmişdir: ***"İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər".***

Əziz şəhidlərimizin xatirəsinə sonsuz ehtiramın bariz nümunəsi olaraq Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən bu il ilk dəfə Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş insanlara – əsgər və zabitlərimizə dərin ehtiram əlaməti olaraq 27 sentyabr tarixi Azərbaycanda Anım Günü kimi qeyd edilir.

Bu münasibətlə Ordubad rayonunda da tədbirlər keçirilib. İkinci Qarabağ müharibəsində Ordubad rayonundan da onlarla igid



oğul iştirak edib. Onlardan 9-u Qarabağın düşmən işğalından azad edilməsində qəhrəmanlıqla şəhid olub, bir çox əsgər və zabitimiz isə qazi kimi muxtar respublikamıza geri dönüb. Onların göstərdikləri qəhrəmanlıqlar hər bir ordubadlının qürur mənbəyinə çevrilib. Belə oğulların xatirəsi muxtar respublikamızda əziz tutulur, dövlətimiz tərəfindən şəhid ailələrinə və qazilərimizə hərtərəfli diqqət və qayğı göstərilir.

Sentyabrın 27-də Ordubad Rayon İcra Hakimiyyətinin kollektivi, idarə, müəssisə və təşkilatların nümayəndələri Ordubad şəhərindəki Şəhidlər xiyabanına gələrək şəhid məzarlarını ziyarət edib, üzərinə tər çiçəklər düzüblər. Həmin gün gənclərin Şəhidlər xiyabanına yürüşü də təşkil olunub, şəhid məzarları ehtiramla yad edilib. Kəndlərimizdə də şəhidlərimizə ehtiram göstərilərək onların məzarları ziyarət olunub.

## Culfa rayonu



Ölkəmizdə olduğu kimi, muxtar respublikamızda da Vətən müharibəsi şəhidlərinin xatirəsi daim uca tutulur, qədim diyarımızın hər yerində şəhidlərimizin əziz xatirəsinə abidələr, xatirə kompleksləri, bulaqlar inşa edilir, onlara həsr olunmuş guşələr yaradılır, yeni yaşıllıq zolaqları, parklar salınır.

İkinci Qarabağ müharibəsində muxtar respublikamızın bütün bölgələrindən, eləcə də Culfa rayonundan olan qeyrətli Vətən oğullarımız böyük qəhrəmanlıq və şücaət göstərib. Döyüşlərdə iştirak edən culfalıların 15-i şəhidlik zirvəsinə ucalıb, 50-yə yaxını qazi kimi öz evinə qayıdıb. Onlardan 2-si "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, müharibə iştirakçıları 7 orden və 300-ə yaxın medalla təltif olunub. Anım Günü münasibətilə keçirilən tədbirdə culfalı şəhidlərin məzarları ziyarət edilib, onların əziz xatirəsi dərin ehtiramla anılıb.

Culfa Rayon İcra Hakimiyyəti aparatının, rayonun idarə, müəssisə və təşkilatlarının kollektivləri, eləcə də ictimaiyyət nümayəndələri Culfa şəhərində yerləşən şəhid məzarları önünə gül dəstələri düzüb, Vətən yolunda, ərazi bütövlüyümüz uğrunda şəhidlik zirvəsinə ucalan oğullarımızın əziz xatirəsini yad ediblər.

Həmin gün məktəblilərin və gənclərin şəhid məzarlarına yürüşü təşkil olunub. Rayonun kəndlərindəki şəhid məzarları da ziyarət edilib, keçirilən tədbirlər zamanı şəhidlərin ruhuna dualar oxunub. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, 30 ilə yaxın işğal altında qalan torpaqlarımızın qaytarılması uğrunda qurban gedən şəhidlərimizin müqəddəs ruhu xalqımız tərəfindən daim uca tutulacaq.

## Kəngərli rayonu

Sentyabrın 27-də muxtar respublikamızın hər yerində olduğu kimi, Kəngərli rayonunda da Anım Günü ilə bağlı tədbir keçirilib. Kəngərli Rayon İcra Hakimiyyəti aparatının, rayonun idarə, müəssisə və təşkilatlarının kollektivləri, eləcə də ictimaiyyətin nümayəndələri torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş qəhrəman övladların xatirəsini yad etmək üçün Qıvraq qəsəbəsində ucaldılmış abidənin qarşısından keçərək şəhidlərimizi dərin ehtiramla yad edib, abidə önünə çiçəklər düzüblər.



Gənclər ulu öndər Heydər Əliyevin Qıvraq qəsəbəsində ucaldılmış abidəsi önündən başlayaraq Xok kənd qəbiristanlığına qədər yürüş edərək şəhid məzarlarını ziyarət ediblər. Anım tədbirləri zamanı rayonun qəsəbə və kəndlərindəki şəhid məzarları da sakinlər tərəfindən ziyarət olunub, Qıvraq qəsəbə məscidində də Vətən müharibəsi şəhidlərinin anım mərasimi keçirilib. Anım Günü şəhidlərin ruhuna dualar oxunub, Azərbaycanın ərazi bütövlüyü uğrunda qurban getmiş şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilib.

Qeyd edək ki, II Qarabağ müharibəsində Kəngərli rayonundan olan 24 igid oğul şəhidlik zirvəsinə ucalıb, 96 hərbi qulluqçu isə qazi adını qazanıb. Bu gün muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, bu rayonda da şəhid və qazi ailələrinə böyük diqqət və qayğı göstərilir, dövlətimiz tərəfindən onların sosial problemləri uğurla həll olunur.

## Şahbuz rayonu



Torpaqlarımızın işğaldan azad edilməsi naminə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi xalqımız tərəfindən daim uca tutulur, ehtiramla anılır. Böyük Zəfərlə sona çatan Vətən müharibəsində muxtar respublikamızın qəhrəman oğulları da rəşadətlə vuruşub, bu müqəddəs yolda şəhidlik zirvəsinə ucalanlar olub.

Ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamı ilə hər il 27 sentyabrın Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilməsi qərara alınıb.

Şahbuz rayonunda da 27 sentyabr – Anım Günü ilə bağlı silsilə tədbirlər keçirilib. Şahbuz Rayon İcra Hakimiyyətinin, rayonun idarə, müəssisə və təşkilatlarının kollektivləri, eləcə də ictimaiyyət nümayəndələri Şəhidlər Abidə Kompleksi və şəhid məzarlarını ziyarət edib, onların əziz xatirəsi tədbir iştirakçıları tərəfindən minnətdarlıqla yad olunub.

Qeyd edək ki, həmin gün Şahbuz Rayon İcra Hakimiyyətinin və rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə məktəblilər və gənclər şəhərin Heydər Əliyev prospektindən Şahbuz şəhərində dəfn olunan şəhid İlkin Muradlının məzarına yürüş ediblər. Rayonun kəndlərindəki şəhid məzarları da ziyarət olunub, şəhidlərin ruhuna dualar oxunub.

## Sədərək rayonu

44 gün davam edən azadlıq mücadiləsində Vətənimizin hər yerindən gələn igidlər qəhrəmanlıq göstərdilər. Onların sırasında Oğuz yurdu Sədərəyin də qəhrəman oğulları var idi. 90-cı illərdə düşmənin qarşısında səddə çevrilən Sədərəyin güllə səsi altında böyüyən igidləri Vətən müharibəsində düşmənin başına şimşək kimi çaxdı. Onların 6-sı şəhidlik zirvəsinə ucaldı, neçəsi qazi kimi evinə döndü. Vətən müharibəsinin başlanmasının ildönümündə respublikamızın hər yerində olduğu kimi, Sədərək rayonundakı Şəhidlər xiyabanında uyuyan igid oğullarımız da ehtiramla anıldı. Rayon ictimaiyyətinin nümayəndələri, idarə və təşkilatların kollektivləri xiyabana gələrək məzarlara gül dəstələri qoyub, şəhidlərimizin ruhuna dualar ediblər. Gənclərin Şəhidlər xiyabanına yürüşü təşkil olunub.



## Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində Anım Günü qeyd edilib



*Sentyabrın 27-də Naxçıvan Muxtar Respublikasının Bakı şəhərindəki Daimi Nümayəndəliyində Vətən müharibəsinin başlanmasının ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.*

Tədbirdə daimi nümayəndəliyin kollektivi, Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları, şəhidlərin ailə üzvləri, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının dövlət müstəqilliyi, torpaqlarımızın işğaldan azad edilməsi, Vətənimizin ərazi bütövlüyü uğrunda rəşadət və şücaət göstərmiş qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daimi nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov çıxış edərək xatırladıb ki, Prezident cənab İlham Əliyevin 44 günlük Vətən müharibəsinin gedişi, qazanılan Tarixi Qələbənin hərbi-siyasi əhəmiyyətindən bəhs edib. Bildirilib ki, Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da şəhid ailələri, qazilər və müharibə iştirakçıları hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Şəhid ailələri və qazilər mənzillərlə, avtomobillərlə təmin edilir, müalicəyə və sosial təminata ehtiyac duyan şəhid ailələrinin, qazilərin muxtar respublikada tibbi və sosial təminatı diqqət mərkəzində saxlanılır.

Qeyd olunub ki, Azərbaycan Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə öz gücünü Vətən müharibəsində bir daha ortaya qoyub. Müzəffər Ali Baş Komandan və rəşadətli Azərbaycan Milli Ordusu Tarixi Qələbə ilə Azərbaycan tarixində yeni səhifə yazıb. Bu tarixi Zəfər İkinci Dünya müharibəsindən sonra əldə olunan qələbələr içərisində dünyada ən şanlı və ədalətli qələbədir. Bu, haqqın qələbəsi idi. Bu Zəfər Azərbaycan xalqının əzəli və tarixi, dədə-baba yurdlarının, təxminən, 30 ildən sonra azad olunmasını təmin etdi. Bir milyona yaxın Azərbaycan vətəndaşının Vətən, torpaq həsrətinə və nisgilinə son qoydu.

Daimi nümayəndəliyin rəhbəri diqqətə çatdırıb ki, torpaqlarımızın azad olunması uğrunda başlanan İkinci Qarabağ müharibəsində, xüsusilə qeyrət qalamız olan Şuşamızın azad olunmasında Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları, xüsusi təyinatlıları və Naxçıvandan olan könüllülər də yaxından iştirak edib, şəhid və qazi olublar. Həmin Vətən müharibəsi iştirakçıları, şəhid və qazilərimizin xidmətləri də yüksək qiymətləndirilib, onlar Müzəffər Ali Baş Komandan tərəfindən orden və medallarla təltif edilib.

Sonda daimi nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamları ilə təltif olunmuş, Naxçıvan Muxtar Respublikasında hərbi xidmət keçmiş, oradan Vətən müharibəsinə yollanaraq döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş, igidlik və qəhrəmanlıq göstərərək şəhid olmuş bir qrup Vətən övladının orden və medallarını onların ailə üzvlərinə təqdim edib.

Şəhid ailələri və Vətən müharibəsi iştirakçıları adından çıxış edən şəhid gizir Vüsal Mehdi oğlu Tahirovun anası Rəsmiyyə Tahirova övladlarının qəhrəmanlığına verilən yüksək qiymətə və onlara göstərilən dövlət qayğısına görə Prezident cənab İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova sonsuz minnətdarlıqlarını bildirib.

**AZƏRTAC**

## Şəhid və qazilərimizin orden və medalları təqdim olunub

Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi Naxçıvan Qarnizonu Qoşunlarında da yad edilib. Əlahiddə Ümumqoşun Orduda Vətən müharibəsinin başlanmasının ildönümü ilə əlaqədar keçirilən anım tədbirində bir qrup şəhid ailəsinin üzvü iştirak edib.



Tədbirdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev çıxış edərək vurğulayıb ki, Azərbaycanımızın bütövlüyü və müdafiəsi uğrunda gedən döyüşlərdə Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularından yaralanan və şəhidlik zirvəsinə ucalanlar olub. Bu gün müharibə veteranlarına və şəhid ailələrinə diqqət və qayğı sosial siyasətin əsas istiqaməti kimi müəyyənləşdirilib. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən hərbi qulluqçuların, müharibə veteranlarının və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülür. Müharibə iştirakçılarının təltif edilməsi vətənpərvər insanların fəaliyyətinə dövlətimizin verdiyi yüksək qiymətdir.

Sonra Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müvafiq sərəncamları ilə təltif edilmiş bir qrup şəhidin ailə üzvlərinə müxtəlif orden və medallar təqdim edilib.

Şəhid valideynlərindən Habil Məmmədov, İlham Abdullazadə və Aytən Eyvazova dövlətimizə minnətdarlıq edərək müharibə iştirakçılarına, qazilərə və şəhid ailələrinə göstərilən qayğıdan danışıblar.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmət üzrə Dövlət Xidmətində 27 sentyabr – Anım Günü ilə bağlı keçirilən tədbirdə də Vətən müharibəsi iştirakçısı olan 8 qazimizə "Döyüşdə fərqlənməyə görə" və "Şuşanın azad olunmasına görə" medalları təqdim edilib.

**Xəbərlər şöbəsi**

*2020-ci il 27 sentyabrın səhəri... İstirahət günü idi. Həmişəki kimi erkəndən oyanmışdım. Adətim üzrə televizorda xəbərləri izləməyə başladım. Efirdə ölkə başçısı cənab İlham Əliyevin müraciəti gedirdi:* ***"Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutmuşdur. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür".***



# 30 ilin hicranının vüsalı 44 gün



### Düşmənin özünə bağışlamayacağı tarixi səhvi

Düşmən təsadüfən bazar gününü seçməmişdi. Düşünmüşdü ki, hər kəsin başı qarışıq olar və bu qarışıqlıqdan istifadə edər. Ancaq unutmuşdu ki, Azərbaycan Ordusunun ərazilərimizin müdafiəsində ayıq-sayıqlığı sərhəddən bir quşu belə uçurmaz.

Ordumuz düşmənin qarşısını almaq və vətəndaşların təhlükəsizliyini təmin etmək üçün Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatlarına başladı. Münaqişə qısa müddətdə genişləndi və Vətən müharibəsi başlandı. Bu dəfə ermənilər həyatlarının səhvini etdilər. Çünki düşündükləri kimi Azərbaycan nə 1990-cı ildəki Azərbaycan, nə də ordumuz 90-cı illərdəki ordu idi. Düzdür, 30 il dözmüşdük, səbir etmişdik, bəlkə, sülh yolu ilə torpaqlarımızı geri alarıq, – deyə. Lakin yanılmışdıq. Əksinə, düşmən yeni ərazi iddiaları ilə çıxış edir, texnikalarının Bakıya kimi gələcəyini bildirərək təhdid dili ilə danışaraq əsl niyyətlərini açıq-aşkar etiraf edirdilər. Bax, əslində, burada onlar haqlı idilər. Ona görə ki, onların texnikaları, həqiqətən də, Bakıya "gəldi". Qüdrətli ordumuzun düşmən tərəfdən əldə etdiyi hərbi qənimətlər düz Bakının mərkəzinə kimi gətirildi... Necə darmadağın edildiyini nümayiş etdirmək üçün...

30 il gözləsək də, bu müddət ərzində güclǝndik, inkişaf etdik. Bu inkişafla qələbə gününü daha da yaxınlaşdırdıq. Necə ki, ölkə başçısı deyirdi: ***"Biz bu günü yaxınlaşdırmaq üçün hazırlaşırdıq. Mən öz çıxışlarımda dəfələrlə demişdim ki, hər gün biz bu günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırdıq. Göründə ki, dünyada beynəlxalq hüququn norma və prinsipləri kobudcasına pozulur, aparıcı beynəlxalq təşkilatların qərar və qətnamələrinə məhəl qoyulmur, işğalçı Ermənistan daha da azğınlaşır, bizim torpağımızdan çıxmaq istəmir, əlbəttə, biz daha ciddi hazırlaşmalı idik. Bu hazırlıq hərtərəfli olmalı idi. Bu hazırlıq işlərinə biz vahid konsepsiya çərçivəsində yaxınlaşırdıq və bunu müəyyən edirdik".***

### Zəfərə gedən yol

Əslində, tarixi qələbənin qığılcımları Aprel döyüşlərindən, Naxçıvanda uğurlu Günnüt əməliyyatından və Tovuz hadisələrindən başlamışdı. Bununla səbir kasamız dolmuşdu. Düşmənin növbəti təxribatı isə o kasanı daşıran son damla oldu.

2017-ci il oktyabrın 18-də – Azərbaycan Respublikasının dövlət müstəqilliyi günündə Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə möhtəşəm hərbi parad keçirilirdi. Mən də bir jurnalist kimi həmin paraddan hazırladığım süjetdə efir sözlərimin birində nizamlı addımlarla hərəkət edən texnikaların önündə dayanaraq *"Mətin addımlarla irəliləyən igidlərimiz, sıralanan texnika ötən qısa zamanda Azərbaycanda ordu quruculuğu sahəsində əldə olunan əyani inkişafı nümayiş etdirir. Ordumuz Ali Baş Komandanın əmrini gözləyir. İgid hərbçilərimiz işğal olunmuş torpaqlarımızı hər an işğaldan azad etməyə hazırdır"*, – demişdim.

Bəli, o gözlənilən əmr, gözlənilən vaxt gəlib çatdı. 44 gün davam edən İkinci Qarabağ savaşında 30 illik həsrətə son qoyduq, tarixi ədaləti bərpa etdik, düşmənin murdar ayaq izlərini əzəli ata-baba yurdumuzdan birdəfəlik sildik. Öz orduları haqqında yaratdıqları "yenilməz ordu" mifini darmadağın etdik. Cəmi 44 günə Ermənistan ordusu məhv edildi, hərbi texnika və canlı qüvvə sarıdan ağır itki verdi. Müharibənin bitməsindən bir il keçməsinə baxmayaraq, ermənilər hələ də azad etdiyimiz torpaqlardan məhv edilmiş işğalçı ordunun hərbçilərinin cəsədlərinin qalıqlarını axtarırlar. Sosial şəbəkələrin Ermənistan seqmentində ən son məlumatlara əsasən qeyd olunur ki, 1670 erməni qalığı tapılıb. Hələ çox axtaracaqlar... Düşmən də, dünya da gücümüzü gördü.

### Naxçıvandan döyüşə yollanan ölməz oğullar

Naxçıvan Muxtar Respublikasında ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən möhtəşəm hərbi parad iştirakçılarından da bu haqq savaşına qoşulanlar çox oldu. Ali Baş Komandan: ***"Hərbi əməliyyatların müəyyən mərhələsində biz Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun xüsusi təyinatlılarını da cəlb etdik. Onlar Naxçıvandan ezam olunmuşdu və döyüş əməliyyatlarında xüsusi təyinatlı qüvvələrin digər nümayəndələri ilə bərabər iştirak edirdilər".***

İllərdir ki, Naxçıvanda ordu quruculuğu istiqamətində mühüm işlər görülür. Maddi-texniki baza möhkəmləndirilir, peşəkar kadrlar hazırlanır, şəxsi heyətin mənzil-məişət şəraiti yaxşılaşdırılır, xüsusilə ordunun gücünü artırmaq üçün təlimlər keçirilir. Necə deyərlər, təlimdə tər tökməyən döyüşdə qan tökər. Hər il keçirilən taktiki təlimlər ordunun inkişafının təməl prinsiplərindəndir. Ali Məclis Sədrinin vaxtaşırı sərhəd bölgələrində olması, əsgərlərlə görüşməsi şəxsi heyətdə ruh yüksəkliyini artırır. Bütün bunlar Lider-ordu birliyinin göstəricisidir. Yaradılan şərait imkan verir ki, müdafiənin etibarlı təşkili ilə bərabər, istənilən döyüş tapşırığı da uğurla yerinə yetirilsin. Bu özünü uğurlu Günnüt əməliyyatı və Vətən müharibəsində aydın şəkildə göstərdi. Ölkə başçısının dediyi kimi: ***"Günnüt əməliyyatı Naxçıvan Ordusunun potensialını göstərdi, Azərbaycan Ordusunun potensialını göstərdi. İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər. Bilirsiniz ki, Naxçıvandan Bakıya xüsusi qruplar gətirilmişdi. Eyni zamanda mən onu da bildirməliyəm, yəni, artıq bildirə bilərəm ki, Naxçıvan Ordusunda olan silahların, sursatların bir hissəsi də Bakıya gətirilmişdir və cəbhə bölgəsinə göndərilmişdir. İndi biz həmin o silah-sursatların ehtiyatlarını təmin edirik, ancaq bu da olub. Ona görə Naxçıvan Muxtar Respublikasının həm respublikanın hüdudlarının müdafiə edilməsində, ümumiyyətlə, ölkəmizin ordu potensialının gücləndirilməsində çox böyük rolu var və hər zaman Naxçıvan lazımi dərəcədə müdafiə olunacaqdır".***

### Vətən müharibəsi dünyaya nə öyrətdi?

İkinci Qarabağ savaşında biz bir daha necə güclü orduya malik olduğumuzu, necə birlik, həmrəy olduğumuzu, əcdadlarımızın bizə miras qoyduğu bu torpaqların bir qarışını belə, düşmənə güzəştə getməyəcəyimizi, eyni zamanda düşmənin də iç üzünü, xislətini dünyaya göstərdik. Vətən müharibəsində düşmən döyüş mövqeyindən qaçarkən biz cəbhəyə qaçdıq, onlar Ermənistandan kənarda yaşayan erməniləri, terror təşkilatlarını, muzdluları müharibəyə cəlb etmək üçün yalvardıqları vaxt, gənclərimiz döyüşlərə qatılmaq üçün növbə gözlədi, yaşlılarımız "Mövzu Vətəndirsə, yaşımız 18-dir", – deyərək müharibədə iştirak etmək istədiklərini bildirdilər. 7-dən 70-ə hər kəs əlindən nə gələrsə, etməyə hazır olduğunu bildirdi. Elə öz işini layiqincə görmək vətənpərvərlik deyilmi?! Ali Məclis Sədrinin də dediyi kimi: ***"Vətənpərvərlik geniş məfhumdur. Hər kəs çalışdığı sahədə üzərinə düşən vəzifələri yaxşı icra edirsə, deməli o, vətənpərvərdir."***

### Müasir hərb tarixində bənzəri görülməyən taktika – Şuşa əməliyyatı

Şuşaya iki yolla daxil olmaq olardı. Ya ağır artilleriyadan zərbə endirməklə, ya da əlbəyaxa vuruşmaqla. Biz ikinci yolu seçdik. Çünki Şuşa Azərbaycanın mədəniyyət mərkəzidir. Oranı dağıtmaq olmazdı. Ona görə də rəşadətli ordumuz ərazinin əlverişsiz relyefinə baxmayaraq, sıldırım qayalardan dırmaşaraq düşmənə gözlənilmədən ağır zərbələr endirdi. Bu zaman yaralı, şəhid yoldaşlarını da arxada qoymadılar. Onları çiyinlərində daşıdılar. Şuşa istiqamətində döyüşlərin getdiyi bir vaxtda xarici jurnalistlərdən biri ermənilərin acınacaqlı vəziyyətini şərh edərkən deyir: *"Şuşanın müdafiəçiləri acınacaqlı bir vəziyyətdə dağıldılar. Hərbi təcili yardım maşınları onlarla yaralını Xankəndi xəstəxanasına aparır. Qalan döyüşçülər yolboyu hərbi geyimlərini soyunaraq dağdan enirlər. Təcili yardım maşınları gəlib-gedir. Yaralı əsgərlər bir-birinin üstünə qalanıb. Aldıqları yaralar yaxın döyüşün sübutudur"*. Buna oxşar bir neçə material da dərc olunumuşdur.

### ...və Zəfər Günü

Döyüş meydanında darmadağın edilən düşmənin qarşısında iki yol var idi. Ya qalan son tör-töküntüləri də bir nəfərə kimi məhv ediləcək, ya da məğlubiyyətini etiraf edərək "ağ bayraq" qaldıracaqdı. Məğlubiyyətini dərk edən düşmən "ağ bayraq" qaldıraraq 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına imza atdı. Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən imzalanan üçtərəfli bəyanata əsasən Ağdam, Kəlbəcər və Laçın bir güllə belə, atılmadan, siyasi yolla əsl sahiblərinə qaytarıldı.

Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq ölkə başçısı cənab İlham Əliyev 2 dekabr 2020-ci il tarixdə "Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncama əsasən hər ilin sentyabrın 27-si ölkəmizdə Anım Günü kimi qeyd olunacaq. Bu Sərəncam şəhidlərimizə, onların ailələrinə verilən dəyərdir.

Qarabağın 30 illik hicranın vüsalı oldu 44 gün. Əzəli torpaqlarımız öz anasının qoynuna – Vətəninə qovuşdu. Minlərlə qaçqın, köçkünün yurd həsrəti sona çatdı. Ərazi bütövlüyümüz bərpa edildi. Artıq işğaldan azad olunan ərazilərdə sürətlə quruculuq işləri aparılır. Haqq-ədalət öz yerini tapdı. Belə bir deyim var: *"Ədalət topaldır, yavaş-yavaş yeriyir, amma gedəcəyi yerə gec-tez çatır".* Bizim işimiz də ədalət, haqq işi idi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Biz bu Qələbəni həm peşəkarlıq, qəhrəmanlıq hesabına, eyni zamanda milli ruh hesabına qazanmışıq. Biz haqlı idik, haqq-ədalət bizim tərəfimizdə idi. Bizim əsgər və zabitlərimiz hücuma keçəndə bir amalla yaşayırdı ki, öz doğma torpaqlarını işğalçılardan azad etsinlər".***

**Rəmzi İBRAHİMOV**

# Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası tərəfindən nəşrə hazırlanan yeni kitabların təqdimatı keçirilib



*Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə "Naxçıvan şahmat diyarıdır", Mixal Krasenkovun "Şahmat incilərini tapmaq" və "Həvəskardan ustaya qədər" kitablarının təqdimatı keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Ovni Muradov çıxış edərək bildirib ki, muxtar respublikada şahmat hərəkatı son illərdə geniş vüsət alıb. Ümumtəhsil məktəblərində şahmatın tədrisi üçün xüsusi siniflər ayrılıb və şahmat müəllimlərinin növbəti sertifikasiya imtahanı həyata keçirilib. Şahmatın tədrisi səviyyəsinin yüksəldilməsi təkcə müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması ilə məhdudlaşmır. Eyni zamanda ümumtəhsil məktəblərinin şahmat fənninə dair dərslik, dərs vəsaiti və digər tədris-metodik ədəbiyyatlarla təmin olunması da diqqətdə saxlanılır. Şahmat Federasiyası tərəfindən şahmatın əsaslarının şagirdlərə öyrədilməsində müəllimlərə yaxın köməkçi olan kitablar nəşr olunaraq ümumtəhsil məktəblərinə verilib.










Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədr müavini Emin Hacıyev vurğulayıb ki, son dövrlərdə federasiya tərəfindən bir sıra tədbirlər həyata keçirilib. Bu gün Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası tərəfindən 3 kitab hazırlanıb. "Naxçıvan şahmat diyarıdır", Mixal Krasenkovun "Şahmat incilərini tapmaq" kitabları tərcümə və nəşr olunub, "Həvəskardan ustaya qədər" kitabı, eyni zamanda oxuculara təqdim edilib. "Naxçıvan şahmat diyarıdır" kitabı 2 dildə – Azərbaycan və ingilis dillərində hazırlanıb, Naxçıvanda şahmata olan diqqət və qayğını özündə əks etdirib. Bu kitab daha çox xarici şahmatçılar və qonaqlar üçün nəzərdə tutulub, dünyanın heç bir yerində olmayan Naxçıvan şahmat hərəkatını tanıtmaq məqsədi daşıyır. "Şahmat incilərini tapmaq" kitabında çox yaxşı məsələlər var və fərqli üslubda verilib. "Həvəskardan ustaya qədər" kitabı isə bizlər üçün daha üstündür. Çünki federasiyanın öz müəllimi tərəfindən hazırlanıb və çox dəyərlidir.

Daha sonra kitabın müəllifi olan Talıb Babayev və Kəngərli Rayon Şahmat Məktəbinin direktoru Əli Hüseynzadə tərəfindən kitabın əhəmiyyəti barədə tədbir iştirakçılarına məlumat verilib.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 799